UOT 37.0

**Mehparə Kamran qızı Əhmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Naxçıvan Dövlət Universiteti*

# MƏMMƏD ARAZIN "ATAMIN KİTABI" POEMASINDA ƏMƏYƏ MÜNASİBƏT TƏRBİYƏSİ

***Мехпара Камран гызы Ахмедова,***
*доктор философии по педагогике*
*Нахичеванский Государственный Университет*

# ВОСПИТАНИЕ ОТНОШЕНИЯ К ТРУДУ В СТИХОТВОРЕНИИ МАМЕДА АРАЗА «КНИГА МОЕГО ОТЦА»

**Mehpara Kamran Ahmadova,**
*doctor of philosophy in pedagogy*
*Nakhichevan State University*

# EDUCATİON OF ATTİTUDE TOWARDS LABOR İN MAMMAD ARAZ'S POEM "MY FATHER'S BOOK"

**Xülasə**. Məqalədə xalq şairi Məmməd Araz yaradıcılığında "Atamın kitabı" poemasında əməyə münasibət məsələlərindən bəhs edilir. Qeyd edilir ki, hər bir tarixi mərhələdə görkəmli mütəfəkkirlərimiz, şairlərimiz öz əsərlərində əməyə münasibət məsələlərinə xüsusi diqqət yetirmiş, bunu ümumi tərəqqi işinin mühüm amili hesab etmişlər. Çünki hərtərəfli inkişaf etmiş şəxsiyyətə verilən əsas və mühüm tələblərdən biri də hər bir insanın istehsalın, xalq təsərrüfatının bu və ya digər sahəsində fəaliyyət göstərmək bacarığına, əməyə, əmək adamlarına müsbət münasibətlərə malik olmasıdır.

Məqalədə "Atamın kitabı" poemasından olan şeirlərdən təhlillər verilir. Müəllif bu problemlə bağlı aparılmış elmi araşdırmalara istinad etməklə, eyni zamanda Məmməd Araz şeirlərini təhlil etməklə əsaslandırır ki, şair əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüş, əməyin tərbiyəedici xüsusiyyətini göstərərək, yetişən nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, vətən, xalq naminə vicdanla, namusla işləməyi, sənət öyrənməyi vacib bilmişdir.

***Açar sozlər:*** *əmək tərbiyəsi, zəhmətkeş, şəxsiyyət, torpağa məhəbbət, sənət*

**Резюме.** В статье рассматриваются вопросы отношения к труду в стихотворении «Книга моего отца» народного поэта Мамеда Араза. Отмечается, что на каждом историческом этапе наши выдающиеся мыслители и поэты в своих работах уделяли особое внимание вопросам отношения к труду, которые они считали важным фактором в работе общего прогресса. Потому что одно из главных и важных требований для всесторонне развитой личности - это то, что каждый человек имеет возможность действовать в той или иной сфере производства, национальной экономике, иметь позитивное отношение к труду и рабочим.

В статье анализируются стихи из поэмы «Книга моего отца». Ссылаясь на научные исследования по этой проблеме, автор также анализирует стихи Мамеда Араза, утверждая, что поэт взял трудовое воспитание в связи с нравственным воспитанием, показывая воспитательную природу труда, воспитывая любовь к труду и трудящимся в подрастающем поколении, добросовестно относясь к родине и людям. Он считал важным работать честно и изучать искусство.

***Ключевые слова:*** *трудовое воспитание, трудолюбивый человек, личность, любовь к земле, искусство*

**Summary.** The article discusses the issues of attitude towards labor in the poem "My father's book" by the national poet Mammad Araz. It is noted that at each historical stage, our prominent thinkers and poets in their works paid special attention to the issues of attitude to labor, which they considered an important factor in the work of general progress. Because one of the main and important requirements for a comprehensively developed personality is that every person has the ability to act in one or another field of production, the national economy, to have a positive attitude towards labor and workers.

The article analyzes the poems from the poem "My father's book". Referring to the scientific research on this problem, analyzing the poems of Mammad Araz, the author argues that the poet took labor education in connection with moral education, showing the educative nature of labor, cultivating love for labor and working people in the growing generation, conscientiously for the motherland and people. He considered it important to work honestly and learn art.

***Key words:*** *labor education, hardworking person, personality, love of land, art*

Azərbaycan xalqının çoxəsrlik pedaqoji fikir tarixində əmək məsələləri həmişə mühüm yer tutmuşdur. Əmək insanı yaratdığı kimi, onun tərbiyəsi üçün də əsas olmuşdur. Cəmiyyətin yarandığı ilk gündən də əmək tərbiyə işinin əsasında durmuşdur. Təbii ki, bütün tarixi məqamlardakı inkişaf mərhələsində şair və yazıçılarımızın poetik düşüncə tərzindən istifadə imkanlarına toxunulmuş, onların ideya-mənəvi xislətində təzahür edən yaradıcı fəaliyyətindən böyüyən nəslin tərbiyələnməsi istiqmətində qiymətli bir mənbə kimi istifadə olunmuşdur.

Məmməd Araz Azərbaycan pedaqoji fikir tarixində çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə yeni iz, yeni cığır salan, özünəməxsus yeri və mövqeyi olan görkəmli xalq şairidir. Şairin poemaları içində “Atamın kitabı” (1972) poeması ən güclüsü və qüdrətlisidir. Poemada həyat nəfəsi, həyat ətri, torpaq ətri çox güclüdür. Poemada təsvir və tərənnüm olunan İnsan zəhmətkeş, məğrur azərbaycanlıdır, Torpaq da müqəddəs Azərbaycan torpağıdır. Poemanın qəhrəmanı olan ata, cavanlara yol göstərən, onları halal süfrəli ev-eşik sahibi edən, zəhmətsevər, od-ocaq qoruyan, torpağa bağlı olan zəhmətkeş insandır.

Fikrimizcə, “Atamın kitabı” poemasının ideya yükünün mərkəzində dayanan problem əbədi və əzəli torpağa ehtiyacı olan İnsan və İnsana möhtac olan Torpaqdır:

Bu torpaq üstündə ömürlük varam,
Əzilsəm, torpağa dağılasıyam.
Nə vaxtsa dikəlib bulud yararam,
Nə vaxtsa göyərib dağ olasıyam.

Hamımız vətənin bir daş parçası,
Özülü tapıldı – kim onun oldu.
Bu torpaq kiminin qumaş parçası,
Bu torpaq kiminin buz donu oldu [1, s. 129].

Qeyd edək ki, zəhmət və zəhmətsevərlik, təbiət, ona vurğunluq, doğma yurd-ocağa bağlılıq, kəndlinin “şəhərləşməsi”, yurdsevərlik kimi məsələlər həmin ana motivdən, problemdən doğan amillər olub, poemada İnsan-Torpaq mərkəzi ətrafında öz əksini tapmışdır.

Poemada təsvir olunan torpaq bütün əzəməti, vüqarı, yenilməzliyi, estetik gözəlliyi ilə canlandırılmış, onun yaradıcı qüdrəti, qoynunda necə dağlar dikəltdiyi vurğunluqla tərənnüm olunmuşdur:

Bu torpaq nə dağlar dikəldib, Allah!
Bu torpaq uçurumlu, dərəli, nəli...
Burda gözəlliyin hüsnünə aldan,
Burda gözəllər də torpaq sinəli [1, s. 130].

Poemada qələmə alınan ata obrazı əlinin əməyi, təmiz, saf, müqəddəs torpağa sevgisi nəticəsində ümumməhəbbət ünvanına dönür və bütün əzəməti, vüqarı ilə psixoloji obraza çevrilir. Söhrab Tahir bu haqda yazır: “Şair atanı ölməzlik timsalı kimi qələmə almışdır. Ata zəhmət, sevinc, işıq qədər ölməzdir. Atanın bədii səciyyəsi və fərdi xüsusiyyətləri ilə təbiətin şıltaqlığı və səxavəti bir-birinə həddindən artıq yaxındır və bəlkə də eynidir” [7].

Nə qədər ki, torpaq durur –
möhtacdır ələ.
Bu torpağın bəhrəsinə əllərdir ələk.
Bu əbədi qoca torpaq,
əbədi uşaq...
Bu torpağın nənəsi də,
nəvəsi də əllərdir ancaq [1, s.].

Poemada zəhmətkeş əlləri təbiəti, “çölçü həyatı”nı, torpağı, onun hadisələrini, ilkin əmək fəaliyyətinin sirlərini hərf-hərf oxudan həyat kitabı, əmək prosesi dünyəvi elmləri anlamağa, əlifbanı yaddaşa əbədi həkk etdirən, elm, mərifət yolunun təməlini qoyan əyanilik vasitəsi kimi təqdim olunmuşdur. “Lirik şeirlərində olduğu kimi, poemalarında da insanı bu torpağın zərrəsi sayan şair” [2, s. 361].

Ata mayasıyla, qanıyla torpağa bağlıdır, əllərinin zəhmətilə torpaqdan bəhrələnir, onu əzir, əzizləyir, onu sevir, özünü torpağa sevdirir. Gündoğandan ta günbatana qədər torpaqda çalışır, ömrünün mənasını zəhmətdə görür. Atanın bütün zahiri cizgilərini və mənəvi aləmini məhz torpaq və zəhmət müəyyənləşdirir:

Gözaltı bir onun əllərinə bax,
Palıddan yonulmuş şanaya bənzər.
Axşam corabından ovduğu torpaq

Yığılsa, bir ilə təpə düzələr.
Ayaq pəncələri yatmır torpağa,-
Əyilib illərlə xış dabanında.
Yetmiş il, səksən il batıb torpağa,
Sazaq – iliyində,
Qış – dabanında [1, s. 135-136].

Diqqətəlayiq haldır ki, atanın nüfuzu zorakılığa, lovğalığa, süni məhəbbətə, gərəksiz mərhəmətə əsaslanmır. Ata öz nüfuzunu həyatı və işi, davranışı, vətəndaşlıq siması ilə qazanır. Halallıq, zəhmətsevərlik və torpağa məhəbbət onun əsas keyfiyyətidir. Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin bu fikrini xatırlatmaq yerinə düşər: "Biz dünyaya zəhmət üçün gəlmişik, boş hədyanalar xatirinə gəlməmişik".

Poemada dünyagörmüş atanın əmək tərbiyəsi təkrar olunmazdır. O, ailədə uşağın gündəlik zəhmətini, görəcəyi işləri məktəbdə öyrəndiyi hərflərlə, rəqəmlərlə uyğunlaşdırır. Beləliklə, məktəbdə və ailədə tələblər üst-üstə düşür:

– Bu gün nə oxudunuz?
– "A" hərfi, ata!
– Atanın atası… Ata bax, ata!
– …Bu gün nə oxudun dərsindən, bala?
– "B" hərfi, ata!
– Ba… Onda balamın barmağı baldır…
Bulaqda baş-başdı
baldırğan baldır…
Yüyür dəstələ…
– Bu gün nə oxudunuz?..
– "D" hərfi, ata!
– Demək, dəryazı döy-deyiblər, dədə…
Mənim çöl əlifbam macqal dilində
"O" keçdim – deməli orağı yağla,
"C" keçdim – deməli cütü qulaqla…
Nə yaxşı, əlifba "A"-dan başlanır,
Atadan başlanır,
Anadan başlanır… [1, s. 139-140].

Qeyd edək ki, Məmməd Araz yaradıcılığının aparıcı mövzuları sırasında Vətən mövzusu və yaradıcı əməyin təbliği özünəməxsus yer tutur. Bu da təbiidir. Torpaq, vətən zəhmətin sayəsində gülüstana dönür. Bu motivi düzgün qiymətləndirən pedaqoq-alim Maarifə Hacıyeva yazır: "Vətən mövzusu ilə yaradıcı əməyin tərənnümü Məmməd Arazın şeirlərində təbii əlaqə və vəhdətdədir. Həyatın nəfəsini zəhmətdə görən şair – şeirdə zəhmət adamlarının qəlbindəki çırpıntı, hərarət qədər təbii olmalıdır – qənaətinə gəlir" [3]. Lakin "Atamın kitabı"ndakı insan əməyinin tərənnümü prosesi sadəcə təbliğ xarakteri daşımır. Burada bir növ zəhmətin daxili dünyasına nüfuz edilir, əməyin poeziyası tərənnüm olunur. Məmməd Arazın bu poemanın yazıldığı dövrə təsadüf edən "Poeziyamızda partiyalılıq və sənətkarlıq" mövzusunda keçirilən yaradıcılıq müşavirəsindəki çıxışı onun əməyə, zəhmət adamına hansı bucaqdan yanaşmasını göstərir: "Əgər poeziya insanı nəcib hisslər üstündə "kökləyirsə", onu kövrəldir, humanistləşdirir, daim hərəkətə, işığa, sevib yaşamağa səsləyirsə, əmək adamı üçün də vəzifəsini yerinə yetirmirmi?... Demək istəyirəm ki, "əmək adamı haqqında" çağırışından "əmək adamı üçün" nidası daha görkəmlidir" [6].

"Atamın kitabı" poeması sözün həqiqi mənasında şairin irəli sürdüyü mənəvi tərbiyə konsepsiyasını dolğunlğu ilə əks etdirir, "əmək adamı üçün" nidası tam yerinə düşür. Burada ilk növbədə zəhmətkeş insanın xarakteri müəyyənləşir, onun bitkin pedaqoji-psixoloji portreti yaradılır. Poemada əmək prosesindən bəhs etmək onun təsvirindən çox, onun insanın daxili dünyasındakı mövqeyini, bir şəxsiyyət kimi yetişməsindəki rolunu müəyyənləşdirməyə xidmət edir:

Süz onu alnından sinəsinəcən,
Qırış arxlarını seyr elə bir-bir.
Sanki bu nizamı pozmağa qəsdən
Ömür- tərsinə bir dırmıq çəkibdir [1, s. 135].

K.D. Uşinskinin də qeyd etdiyi kimi "Əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, onu xoşbəxtlik üçün tərbiyə etməli, bəlkə də əmək həyatına hazırlamalıdır. Əmək insanın yer üzündə əldə edə biləcəyi və onun adına yeganə layiq olan xoşbəxtlikdir. Əmək bəşəriyyət tarixinin lap əvvəlindən Yer üzündə solğun işıq saçan müqəddəs şamdır, onu söndürsəniz, Yer üzü zülmətə çevrilər" [8, s. 180].

Şair insanın xəmirinin zəhmətdən yoğurulduğunu, nəcib keyfiyyətlərinin də əmək fəaliyyəti nəticəsində təşəkkül tapıb möhkəmlənməsini şeirdə belə dilə gətirir:

O əllər mənim ilk əlifbam oldu,
Torpağı çölbəçöl,
dərəbədərə
oxutdu mənə [1, s. 136].
Təbiət özü də bir kitabxana,
Hər dərə məktəbdir, hər dağ müəllim.
O ilk ana dilim, o kitab-anam,
Bir də əlinizə yetərmi əlim? [1, s. 137].

Zəhmətkeş insan müftəxor həyat sürənlərə nisbətən daha yüksək əxlaqa, nəcib mənəviyyata malik olur. Bir sözlə zəhmət adamı insanıləşdirir, onun vətənpərvərliyini, mehribanlığını, səxavətliliyini, səbirliyini, iradəliyini və s. gözəl xüsusiyyətlərini formalaşdırmağa münasib şərait yaradır [5, s. 354].

Poemada diqqət çəkən məsələlərdən biri də müəllifin kənddən şəhərə kütləvi axın prosesinə münasibətdir. Bu problem yetmişinci illər poeziyasında bu və ya digər formada öz əksini tapırdı. Şair kənddən şəhərə axımın qarşısını ala bilməsi üçün müqəddəs torpağın özünün möhtəşəm cazibəsindən istifadə edir:

Götür, oxumağa gedən cavanın
Cibinə bir ovuc torpaq tök, de ki:
Sənə çörək verən ata-ananın
Çörəyi olubdur o cibindəki.

Onu sevməyənlər-
Südünü sevməz!
Onu sevməyənlər-haram tikədir!
Torpağa əyilən-şaha əyilməz,
Şahın əydiyini torpaq dikəldib! [1, s. 180].

Poemada zəhmət və zəhmətsevərlik, halal-haram, təbiət, ona vurğunluq, doğma ocağa sevgi və s. kimi mənəvi keyfiyyətləri üzə çıxarır və formalaşdırır. Hansı ki, belə keyfiyyətlər gənc nəslin mənəviyyatca bütöv olmasına köməklik göstərir. İnsani keyfiyyətlərin məhz əmək prosesində formalaşdığı çoxdan sübut edilmiş bir həqiqətdir [4, s. 204].

"Süfrələrin halal zəhmət çörəyi", "Od halal olmasa, ocaq alışmaz", "Ağsaqqal – torpaqda göz Allahıdır!", "Ağsaqqal - birinci söz Allahıdır"– deyən şairin belə misralı şeirləri bu gün də ideya dəyərini, tərbiyəvi əhəmiyyətini itirməyərək yetişən nəslin əməyə məhəbbət ruhunda yetişməsində və tərbiyə olunmasında böyük rol oynayır. Bu mənada şair Məmməd Araz öz söz yükü, məna dərinliyi və mövzu əhatəsi ilə Azərbaycan pedaqoji fikir tarixinə liman salan bir gəmidir. Şübhəsiz ki, müasirlərimiz kimi yeni nəsillər də görkəmli xalq şairinin əsərlərini sevə-sevə oxuyacaq, onun zəngin yaradıcılıq irsindən mənəvi qida, estetik zövq və tərbiyə alacaqlar.

**Məqalənin elmi yeniliyi** odur ki, Məmməd Araz yaradıcılığında əmək tərbiyəsi məsələləri tədqiqata cəlb olunmuş, şairin "Atamın kitabı" poeması əsasında gənc nəslin nəslin əməyə və əməkçi insanlara məhəbbət ruhunda tərbiyə olunmasının əhəmiyyəti öyrənilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məmməd Arazın zəngin irsindən yaradıcılıqla istifadə etməklə yeni insan yetişdirmək sahəsində hazırda qarşıya qoyulmuş vəzifələri daha müvəffəqiyyətlə həyata keçirmək olar. Bu baxımdan məqalədə əksini tapmış ideyalar, pedaqoji yanaşmalar orta və ali ixtisas təhsili məktəblərində şagirdlərin və tələbələrin əməyə məhəbbət ruhunda yetişməsi və tərbiyə olunması üçün əhəmiyyətlidir. Eyni zamanda müvafiq mütəxəssislər, fənn müəllimləri bu ideyaları praktik fəaliyyətdə tətbiq edə bilərlər.

**Nəticə.** Təhlil olunmuş şeir nümunələri göstərir ki, Məmməd Araz gənc nəslin əmək prosesində boya-başa çatdırılması, əməkdə bərkidilməsi, əməksevərlik ruhunda yetişdirilməsi məsələlərinə ciddi şəkildə diqqət yetirmiş, onları çalışqan olmağa, əməyi sevməyə çağırmış və bu ruhda tərbiyə etməyə çalışmışdır.

**Ədəbiyyat**

1. Araz M.İ. Seçilmiş əsərləri. Dörd cilddə, IV cild, Bakı: "Ozan, 2003, 356 s.
2. Aslan M.M. Azərbaycan şeirinin sənət bürcü. "Daş harayı" kitabına müqəddimə. Bakı: Yazıçı, 1992, 256 s.
3. Hacıyeva M.H. Şair yaddaşının poetikası. "Ədəbiyyat və incəsənət" qəz., 1978, 12 avqust,
4. Həşimov Ə., Sadiqov F. Azərbaycan xalq pedaqogikası. Bakı: Ünsiyyət", 2000, 272 s.
5. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002, 447 s.
6. Poeziyamızda partiyalılıq və sənətkarlıq" mövzusunda 16-17 dekabr 1971-ci il tarixdə keçirilmiş yaradıcılıq müşavirəsinin materialları. "Ədəbiyyat və incəsəsənət" qəz., 1971, 25 dekabr
7. Tahir S.Ə. Şair dostum Məmməd Araz // Ulduz, 1978, № 8
8. Uşinski K.D. Seçilmiş əsərləri. Bakı, 1953, 312 s.

**E-mail**: ehmedovamehpare69@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok.,* prof. **F.B. Sadıqov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**

**Redaksiyaya daxil olub**: 02.03.2021